# Musiqi sədaları altında

Qafur Şərifov adına Uludaş kənd tam orta məktəbində «Son zəng» tədbiri kollektivinin böyük fəallığı ilə qeyd olunub. Azərbaycan Respublikası Dövlət Himninin səslənməsi ilə başlayan tədbirə artıq məzun adı qazanmış dünənki on birinci sinif şagirdləri Allahşükür Həmidzadə və Günel Qaçayeva aparıcılıq edib.

Dərs ilinin uğurla başa çatması münasibətilə müəllimləri, məzunları, bütün şagirdləri və vadideynləri təbrik edən aparıcılar sözü məktəbin direktoru Sadəddin Eldarova veriblər.

Məktəb direktoru dərs ilinin sona çatması münasibətilə təhsil ocağının bütün kollektivini, valideynləri təbrik etmiş, məzunlara qədəm basdıqları yeni, müstəqil həyatda müvəffəqiyyət arzulamışdır. Sadəddin Eldarov həmçinin məktəbin ötən dərs ilində təhsil və təlim sahəsində əldə etdiyi uğulardan bəhs etmişdir.

Tədbirdə müəllimlərdən Sevinc Qarayeva, Rəhman Abdurahmanov, valideynlərdən Namiq Həmidov, Qiyas Abdulkərimov, Etibar Ağasıyev, Yusif Bayramov və başqaları məzunları təbrik etmiş, ürək sözlərini söyləmişlər.

Musiqi sədaları altında keçən tədbirdə məzunlar və birinci sinifi başa vuran şagirdlər Vətənə, anaya, ordumuza həsr olunmuş şeirlər söyləmiş, mahnılar oxumuşlar.

Bayram əhval-ruhiyyəsi ilə keçən tədbir «Son zəng»in çalınması ilə başa çatmışdır.

**Emin BARATOĞLU,**
**«Qəbələ»nin müxbir postunun rəhbəri,**
**«Qızıl Qələm» media mükafatı laureatı.**

## Mütəxəssis məsləhəti

# Fındıq bitkisinin xəstəliklərinə qarşı mübarizə üsulları

***Bütün meyvə bitkiləri kimi, qərzəkli meyvə bitkilərində də bir çox xəstəlik və zərərvericilər mövcuddur. Təkcə fındıq bitkisində 250-dən çox gənə növünə rast gəlmək mümkündür. Fındıq bitkisindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün aqrotexniki tədbirlərlə yanaşı, xəstəlik və zərərvericilərlə mübarizə də əsas rol oynayır.***

**Mozaika xəstəliyi.** Virus mənşəlidir. Xlorotik dairəvi ləkəlilik, yarpaqların qıvrılması, alabəzək olması xəstəliyin yarpaqdakı əlamətləridir. Çox vaxt yarpaqlarda parlaq sarı, solğun sarı və ağ xətt formasında müşahidə olunur. Xəstəliyin daşıyıcısı mənənələr və digər sorucu ağız aparatına malik olan həşəratlardır. Bu xəstəliyə qarşı iyun-iyul aylarında mübarizə aparılmalıdır. Bunun üçün təsiredici maddəsi "İmidaxloprid" və "Acetamiprid" olan preparatlardan istifadə edilməlidir.

**Kök çürüməsi xəstəliyi.** Xəstə ağacın kök boğazında olan sarımtıl-qəhvəyi rəngli göbələklər 10-15 santimetr böyüklüyündə olur. Göbələk torpaqda və bitki toxumasında yaşayır. Rütubətli yerlərdə daha yaxşı inkişaf edir. Fındıq ağacının köklərində çürümə yaratmaqla bitkinin quruması səbəb olur... rib çıxarır. Xəstəliyin qarşısını almaq üçün sağlam əkin materialından istifadə olunmalı, artıq rütubətliliyə yol verilməməlidir. Xəstəlik yeni başlayıbsa, xəstə köklər kəsilməli, bitki ətrafı açılmalı və həmin yerlərə əhəng+kükürd, göydaş+əhəng və yaxud xlorlu əhəng məhlulu çilənməlidir. Kəsilmiş yerlərə ardıc qətranı və yaxud əlif sürtülməlidir. Əgər ağac bütünlüklə xəstəliyə sirayətlənibsə, bitki kökündən çıxarılmalı, həmin yuvaya sönməmiş əhəng basdırılmalı, 2-3 il ora heç bir bitki əkilməməlidir.

**Bakterial yanıq.** Bakteriya mənşəli xəstəlik olub, bitkidən bitkiyə yağış, külək və budama alətləri vasitəsilə keçir. Xəstəlik tumurcuqların ölməsinə, zoğ, budaq və gövdə xərçənginin əmələ gəlməsinə səbəb olur. Xəstəliyə yoluxmuş tumurcuqlar açılmır. Yarpaqlarda və meyvələrdə böyüklüyü 1-2 millimetr olan darçını rəngdə ləkələr əmələ gəlir. Xəstəliklə sirayətlənmiş budaq və zoğlar qırmızıyaçalan, meyvə qabığı üzərindəki ləkələr yuvarlaq və qəhvəyi rəngdə olur. Xəstəliyə yoluxmuş budaqların yarpaqları quruyur. Həmin budaqlar və zoğlar sirayətlənmə yerindən 10 santimetr yuxarı sağlam toxumayadək kəsilərək yandırılır. Yığımdan sonra fındıq ağacları 1 faizli "Bordo" mayesi ilə çilənir. Vegetasiya müddətində xəstəliyin əlamətləri müşahidə olunarsa, 1 faizli "Bordo" mayesi və yaxud mis tərkibli preparatlardan biri ilə təkrar mübarizə aparılır.





**Xərçəng xəstəliyi.** Xərçəng yaraları açıq və qapalı olmaqla iki cür olur. Xəstəlik törədiciləri ölü qabıqların altında, çatların arasında qırmızı rəngdə sporlar şəklində yaşayır. Rütubətli illərdə sporlar daha sürətlə yayılır və yeni xəstəlik mənbələrinin əmələ gəlməsinə səbəb olur. Bitkinin yoluxmuş hissəsi sağlam toxumayadək təmizlənərək həmin hissəyə əlif, ardıc qətranı və yaxud əhəngli göydaş sürtülür. Xəstə və quru budaqların kəsilib yandırılması, erkən yazda və payızda 1 faizli "Bordo" mayesi ilə mübarizə xəstəliyin azalmasına səbəb olur.

**Unlu şeh xəstəliyi.** Göbələk mənşəli xəstəlikdir, qışı tökülən yarpaqların altında keçirir. Erkən yazda göbələk sporları fındıq yarpaqlarının alt hissəsində ağ rəngli ləkələr şəklində görünür. Yoluxmuş yarpaqlar yaşıl rəngini və parlaqlığını itirir. Xəstəliklə sirayətlənmiş yarpaqlar getdikcə qəhvəyi rəng alaraq kövrəkləşir və tökülür. Xəstəliyə qarşı ilk mübarizə zoğların uzunluğu 25-30 santimetr, yarpaqlar normal böyüklükdə olduğu zaman "Penconazole", "Hexakonazol", "Propineb", "Fenbukanazol" preparatlarından biri ilə kimyəvi mübarizə aparılmalıdır.

Fındıq bitkisinin zərərvericilərinə gəldikdə, fındıq uzunburnu, qızılağac yarpaqyeyəni, budağagirən, fındıq yarpaqdələninə qarşı "Carbosulfan" (Markasil 25 EC), Amerika ağ kəpənəyinə qarşı "Emamectin benzoate", "Fenoksikarb", fındıq güvəsinə qarşı "Dimetoat", "Methidathion", "Deltamethrin", fındıq minalayıcı güvəsinə qarşı "Methidathion" və "Malathion", yalançı çanaqlı yastıcaya qarşı "Methidation", "Malathion", "Deltametrin", fındıq tumurcuq gənəsinə qarşı "Cyhexatin", "Bromopropylate", "Fenbutatin-oxide", "Propargite", "Pyridaben" və "Aleron 50 EC", vergülşəkilli yastıcaya qarşı "Methidathion", "Deltamethrin", "Comcorde", "Malathion" preparatlarından istifadə olunmalıdır.

# 2018-ci ilin iyul ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2018-ci ilin **2-ci rübü üzrə hesablanmış** cari ödəmələr **iyul ayının 16-dan** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**2018-ci ilin iyun ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları**

- **Əlavə dəyər vergisi bəyannaməsini,**
- **Aksiz bəyannaməsini,**
- **Yol vergisi bəyannaməsini,**
- **Mədən vergisi bəyannaməsini,**
- **Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsini və**
- **Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsi** cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 2-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduqları**

- **Sadələşdirilmiş verginin bəyannaməsini və**
- **Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Cari ilin 2-ci rübü üzrə Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** *(ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla)*

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim etməli və **iyun ayı üzrə hesablanmış vergini** həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

*(ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər).*

- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi**

cari ilin **iyul ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və **iyun ayı üzrə hesablanmış gəlir vergisi** həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Dövlət rüsumu haqqında hesabat**

cari ilin **iyul ayının 20-dək** vergi orqanına təqdim edilməlidir (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **2 bank günü,** xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üzrə alınan dövlət rüsumu **1 ay,** digər dövlət rüsumları isə tutulduqdan sonra **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülür).

* * *

Gəlir və mənfəət vergisi üzrə cari vergi ödəmələrinin son müddəti **qeyr-iş günü** ilə əlaqədar iyul ayının **15-dən 16-na keçirilmişdir.**

# Azərbaycan Respublikası Təhsil Nazirliyi Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi 2018 - 2019-cu dərs ili üçün aşağıdakı peşələr üzrə şagird qəbulu ELAN EDİR

**Dövlət hesabına**

*ÜMUMİ ORTA TƏHSİL BAZASINDAN*
*(9-cu sinif)*

- Geniş profilli traktorçu-maşinist, təmirçi-çilingər - təhsil müddəti 3 ildir;
- Elektrik avadanlığının təmiri və xidməti üzrə elektrik montyoru - təhsil müddəti 3 ildir;
- Üzümçülük və şərab ustası - təhsil müddəti 3 ildir;
- Aşpaz - təhsil müddəti 3 ildir;
- Mehmanxana inzibatçısı - təhsil müddəti 3 ildir;
- Bitkiçilik mütəxəssisi - təhsil müddəti 2 ildir;
- Aqroservis mütəxəssisi - təhsil müddəti 2 ildir;
- Heyvandarlıq mütəxəssisi - təhsil müddəti 2 ildir;

*TAM ORTA TƏHSİL BAZASINDAN*
*(11- ci sinif), təhsil müddəti 1 il;*

- Traktorçu - maşinist;
- Xarrat, dülgər və parket ustası;
- İnteryer və eksteryerin bədii tərtibatçısı;
- Xalçaçı;
- Çilingər-santexnik;
- Turizm Agenti;
- Tədbir və mərasimlərin təşkilatçısı;
- Aşpaz;
- Qənnadçı, şirniyyatçı;
- Ofisiant, barmen, bufetçi;
- Mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi;

**Ödənişli əsaslarla**

- Kompüter operatoru;
- Heyvanlara baytar xidməti köməkçisi;
- Elektrik avadanlığının təmiri və xidməti üzrə elektrik montyoru;
- Telefon rabitəsi və radiolaşdırmanın xətt qurğularının elektromontyoru;
- Kimyəvi-bakterioloji analiz laborantı;
- Mehmanxana inzibatçısı;
- Aşpaz;
- Qənnadçı, şirniyyatçı;
- Dağ-xizək turizm növü üzrə bələdçi;
- Əməliyyatçı - mühasib;

**Qəbul üçün tələb olunan sənədlər**

**İxtisas seçimi:**

1. "ASAN Xidmət" vasitəsi ilə qeydiyyatdan keçənlər ən çoxu 10 ixtisas seçmək hüququna malikdirlər.

2. Seçim prosesi təhsil sənədindəki orta bala əsasən təhsil müəssisəsinin və ixtisasın qeyd olunmuş ardıcıllığı nəzərə alınmaqla keçirilir.

İxtisas seçimindən müvəffəqiyyətlə keçənlər qəbulun nəticələri elan olunduğu gündən 5 gün müddətində qəbul olunduqları təhsil müəssisəsinə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Təhsil haqqında sənədin əsli və surəti;
- Tibbi arayış;
- Şəxsiyyət vəsiqəsinin surəti 2 ədəd;
- 3x4 sm ölçüdə 4 ədəd fotoşəkil;
- Hərbi mükəlləfiyyət barədə sənəd.

*Dövlət hesabına təhsil alanlara hər ay 42 manat təqaüd verilir.*

Dərslər sentyabrın 15-dən başlanır.

**Ünvanımız:** Qəbələ şəhəri, 28 may küç.-34

**Telefonlarımız:** 024 205 25 60, 024 205 04 36, 050 318 90 24, 055 395 49 62